# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**"Gənc Alim və Tədqiqatçıların 7-ci**
**qrant müsabiqəsi"nin (AEF-GAT-7-2023-2(44))**
**qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 3-cü mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Tarixi mənbələrdə Qərbi Azərbaycan həqiqətləri**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İsmayılova Aygün Vilayət qızı**
Layihənin nömrəsi: **AEF-GAT-7-2023-2(44)-10/10/5-M-10**
Müqavilənin imzalanma tarixi: **17 noyabr 2023-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 dekabr 2023-cü il - 01 iyun 2025-ci il**
*Layihənin **III mərhələ** üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | *(burada doldurmalı)*<br>Layihənin bu mərhələsində Qərbi Azərbaycan ərazisində yerləşən maddi-mədəniyyət nümunələri tarixi mənbə kimi nəzərdən keçirilmişdir. Qərbi Azərbaycan ərazisində yerləşən maddi-mədəni irsimiz – qayaüstü təsvirlər, daş kitabələr, məscidlər, qalalar, körpülər və s.tarixi abidələrin hər biri tarixi məlumatları özündə əks etdirir. Burada yerləşən tarixi abidələr və bu abidələr haqqında müxtəlif dövrə aid əsərlərdə, sənədlərdə qeyd edilmiş məlumatlar toplanmış və təhlil edilmişdir.<br>Maddi-mədəniyyət nümunələri bir daha sübut edir ki, bu torpaqlar Azərbaycan xalqının əzəli və əbədi yurdudur. Məhz buna görə də "Türksüz Ermənistan" planını qəddarlıqla həyata keçirən ermənilər bu ərazilərdə tarixi abidələrimizə, maddi-mədəniyyət nümunələrimizə qarşı da soyqırım aparmışlar. Belə ki, tarixi abidələri, maddi-mədəniyyət nümunələrini dağıtmış, toponimləri dəyişdirərək süni şəkildə özlərininki kimi təqdim etməyə çalışmışlar. Öz çirkin niyyətlərini həyata keçirmək üçün aaprdıqları siyasət təəssüf ki, bu gün də davam etməkdədir. Lakin tarixi qaynaqlar, müxtəlif mənbələr və sənədlərsübut edir ki, nə qədər saxtalaşdırmağa çalışsalar da, tarixi reallığə dəyişə bilməzlər.<br>Qərbi Azərbaycan ərazisindən aşkarlanan daş kitabələr, abidələr, maddi-mədəniyyət nümunələri bu ərazilərin Azərbaycan türklərinə məxsus olduğunu göstərir. Həmçinin, tarixi abidələr müxtəlif dövrə aid yazılı qaynaqlarda da təsvir edilmiş, onlar haqqında, əhali haqqında məlumatlar verilmişdir. Bu məlumatlar daş kitabələr üzərindəki təsvirlər və yazılarla üst-üstə düşür. Bu da bir daha erməni saxtakarlığını təkzib edir. Orta əsrlərdə Azərbaycanın digər ərazilərində olduğu kimi, |

Qərbi Azərbaycan torpaqlarına da səfər etmiş Avropa səyyahlarının gündəliklərində də burada yerləşən qalalar, məscidlər, ərazinin tarixi coğrafiyası və əhali barədə məlumatlar öz əksini tapmışdır. Avropalı səyyahlardan 1655-ci ildə Jan Batis Tavernye İrəvana gəlmişdir. Onun gündəliyində İrəvan qalası haqqında məlumatlarda qeyd edilmişdir ki, buranın əhalisi müsəlmanlardır. Daha sonra Şarden də öz qeydlərində Sərdarın sarayını təsvir etmiş, əhalinin müsəlmanlardan ibarət olduğunu bildirmişdir. Həmçinin, o, qeydlərində, qala divarlarını Qırxbulaq, Zəngi çaylarının suvardığını yazmışdır. Bu adların etimologiyası da bir daha tarixi həqiqətləri sübut edir.

Qərbi Azərbaycan ərazisində olan maddi-mədəniyyət nümunələri içərisində ən qədim dövrdən tutmuş müasir dövrə qədər xronoloji çərçivəni əhatə edən müxtəlif abidələr mövcuddur. Bunlardan arxeoloji abidələr, qəbirüstü heykəllər, müxtəlif qalalar, məscidlər, günbəzləe, körpülər, daşüstü kitabə və qayaüstü təsvirlər var. Bu abidələrdən biri Bazarçay vadisində yerləşən qədim yaşayış məskənlərindən olan mağaradır. E.ə. II-I minilliklərə aid olan bu mağara ən qədim yaşayış məskənlərindən hesab edilir. Təəssüf ki, mağaranın bir hissəsi ermənilər tərəfindən dağıdılmış, süni şəkildə erməniləşdirilməyə və erməni abidəsi kimi təqdim edilməyə çalışmışlar. Qərbi Azərbaycanda yerləşən arxeoloji abidələrdən biri Göyçə mahalında Şişqaya kəndində yerləşən abidədir. Burada alban abidəsi mövcuddur ki, sonradan bu dini ziyarətgaha çevrilmişdir. Alban abidələrində müxtəlif tipli daşlar, alban xaçı təsvir edilmişdir.

Tarixi həqiqətləri özündə əks etdirən maddi nümunələrdən biri də qayaüstü təsvirlərdir. E.ə. V-II minilliklərə aid belə təsvirlərdən Soyuqbulaq, Qarakilsə qayaüstü təsvirlərini misal göstərmək olar. Zəngəzur mahalının Qarakilsə rayonunda yerləşən qayaüstü təsvirlərdə heyvanlar, ovçuluğa aid olanlar üstünlük təşkil edir. Qeyd edək ki, bu təsvirlər Qobustanda yerləşən abidələrdəki təsvirlərlə oxşardır. Loru mahalının Soyuqbulaq kəndində yerləşən abidələr üzərində də ən qədim dövrə aid təsvirlər var. Soyuqbulaq qayaüstü təsvirləri də Dağlıq Altay ərazisində aşkarlanmış abidələrlə demək olar ki, eynidir. Bu qayaüstü təsvirlərin həm Altay ərazisində aşkarlanmış abidələrlə, həm Qobustan təsvirləri ilə oxşar olması bir daha bu ərazilərin ən qədim sakinlərinin Azərbaycan türkləri olmasını sübut edir. Qarakilsə ərazisində yerləşən tarixi abidələrdən biri də neolit dövrünə aid Qoşundaş abidəsidir. Abidənin adının mənşəyi də onun məxsus olduğu xalq haqqında məlumat verir. Təsadüfi deyil ki, ermənilər bu abidəni "Zorakarer" adlandıraraq özününkülədirməyə çalışır.

Nüvədi kəndində yerləşən Qarqadaşı kitabələrinin qarqar türklərinə aid edilir. Bu abidə üzərində göytürk hərfləri ilə olan yazılar onların bir daha qədim türk xalqına aid olmasını sübut edir. Zəngəzur ərazisində yerləşən Urud qalası Qərbi Azərbaycan tarixini öyrənmək üçün mühüm maddi-tarixi abidələrdən biridir. Bu qala haqqında məlumat mənbələrdə 450-ci ilə aid olan hadisələrdə qeyd edilir. Urud qalası ilə yanaşı burada tarixi məzarlıqlar da mövcuddur. Bu məzarlıq 1926-cı ildə A. Ələkbərov tərəfindən tədqiq edilmişdir. Qədim türklərə aid sənduqə tipli məzarlar nadir tarixi abidələrdən hesab edilir. Burada üzərində qoçbaşı təsvirləri, heykəlləri olan məzarlar da mövcuddur. Qoç təsvirləri və heykəlləri digər ərazilərdə Naxçıvanda, Lerikdə və b. ərazilərdə də rast gəlinir. Bu bir daha bu abidələrin xalqımıza məxsus olduğunu göstərir. Məzarlardan birinin üzərində ərəb dilində yazılmışdır: "Allah, Məhəmməd, Əli Üğvan (ağvan) nəslindən olan kəndxuda oğlu Əmrugəl, ramazan ayı, 883-cü il". Orta əsrlərə aid olan Urud abidələri üzərindəki yazılar, təsvirlər də buranın Azərbaycan xalqına məxsus olduğunu bir daha sübut etməkdədir. Qeyd edək ki, burada 1961-ci ildə tədqiqat aparan alimlərdən biri də M.Nemətova olmuşdur. O, tarixi abidələrin əksəriyyətini tədqiq etmişdir.

Vedibasar mahalında yerləşən Kosanlı və Paskili qəbiristanlıqlarında da qoç heykəlləri var. Lakin bu tarixi abidə 1948-ci ildən başlayan azərbaycanlıların deportasiyasından sonra dağıdılmışdır. Ermənilər azərbaycanlılara aid izləri silmək üçün digər abidələrimizə qarşı həyata keçirdikləri vandallıqları burada da tətbiq etmişlər. Belə qoş və at başlı heykəllər və təsvirlərə Şidli məzarlığında da rast gəlinir. Şidli Vedi rayonunda yerləşən kəndlərdən biridir. Kəndin adı qədim türklərə məxsus

şad titulundan yaranmışdır. Bu barədə Musa Kalankatlının "Alban tarixi" əsərində də məlumat verilmişdir. Burada təsvirlərinə görə Qoçdaşı və Atdaşı deyilən heykəllər olmuşdur. Zəngibasarda, Dərələyəz mahalının Qabaxlı kəndi ərazisində də belə qəbirüstü heykəllər mövcuddur. Bu da türklərə məxsus at və qoç təsvirləri buranın Oğuz-türk yurdu olduğunun göstəricilərindən biridir.

Qərbi Azərbaycan ərazisi arxeoloji baxımdan sistemli şəkildə XIX əsrin 70-90-cı illərindən tədqiq edilməyə başlanmışdır. 1871-ci ilin oktyabrında Tiflis şəhərində Qafqaz Arxeoloji Komitəsi yaradılmışdır. Növbəti ildən Qafqaz Arxeologiya Həvəskarları Cəmiyyəti adlanan bu qurumun üzvləri Qərbi Azərbaycan ərazisinində müxtəlif arxeoloji araşdırmalar aparmışlar. 1880-ci ildə İrəvanda olmuş arxeoloq Uvarov da İrəvan qalası, burada yerləşən məscid barəsində məlumat vermişdir. İrəvandakı Göy məscidi müsəlman memarlığının ən yaxşı nümunələrindən hesab etdiyini göstərmişdir. Bu məscid hazırda ermənilər tərəfindən fars mədəniyyət abidəsi kimi təqdim edilir. Qeyd edək ki, statistik məlumatlara əsasən, 1915-ci ildə İrəvan və Zəngəzur quberniyalarına daxil olan ərazilərdə 391 məscid mövcud olmuşdur. Lakin Ermənistan dövləti qurulduqdan sonra – 1918-ci ildən etibarən məscidlərin dağıdılmasına başlanmış və əksəriyyəti tamamilə məhv edilmişdir. Moskva Arxeoloji Cəmiyyətinin üzvü A.İvanovski Göyçə gölü ətrafında apardığı arxeoloji tədqiqatlar nəticəsində müxtəlif maddi nümunələr, o cümlədən də Oğuz türklərinə aid olan müxtəlif qəbirlər aşkar etmişdir.

Qərbi Azərbaycanda arxeoloji araşdırmalar sovet hakimiyyəti illərində də aparılmışdır. Lakin Ermənistan SSR tərəfindən aparılanar xeoloji araşdırmalar zamanı əldə edilən maddi-mədəniyyət nümunələri erməni abidəsi kimi muzeylərdə, mətbuat və elmi ədəbiyyatlarda təqdim etmişlər. Bununla kifayətlənməyib, açkarlanan tarixi abidələr üzərində süni şəkildə dəyişikliklər aparmışlar. Lakin əldə edilmiş bu maddi mənbələr, onların özünəməxsus xüsusiyyətləri, digər ərazilərdə tapılan abidələrlə eyni və oxşar olması bir daha erməni yalanlarını ifşa etmiş olur.

Sovet hakimiyyəti illərində XX əsrin 60-cı illərində Göyçə mahalında, Basarkeçər rayounun Nərimanlı kəndi ərazisində alban abidələri tapılmışdır. Bu abidə e.ə. II-I minilliyə aid alban abidəsidir. XX əsrin 70-ci illərində Göyçə mahalında Ardanış kəndində alban məbədi tapılmışdır. Alban kilsəsinin qalığı hesab edilən bu tarixi abidənin bir hissəsində daş kitabələr var idi. Bu kitabələrin üzərində qədim türk dilində yazılar həkk edilmişdi. Belə alban məbədlərindən biri də Zəngəzur qəzasında, Aldərə kəndində aşkar edilmişdir. Məbədin ətrafında da bir çox tarixi tikililərin qalıqları mövcud idi. Azərbaycanın tarixi izlərini daşıdığı üşün abidə təmir edilməmiş, baxımsız qalmış və ətrafı xarabalığa çevrilmişdir. Qeyd edək ki, kənd sakini olan soydaşlarımız 1988-ci ilin noyabrında deportasiya olunmuş, bütün azərbaycanlıların hamısı buradan didərgin salınmışdır. Qəmərli rayonu ərazisində, Bayburt kəndi ətrafında XII-XIII əsrlərə aid alban məbədi mövcud idi. Ermənilər tərəfindən bu məbəd özlərinin milli-dini abidəsi kimi qələmə verilmişdir. Lakin kəndin adından da göründüyü kimi, bayburt türk tayfalarından biri olmuşdur. Yazılı qaynaqlardan da məlum olur ki, Səfəvilər dövründə qızılbaş tayfaları içərisində bayburtlar da var idi. Belə alban məbədlərindən biri də 936-cı ildə tikilmiş Səfiyyə məbədidir. Bu məbəd Dərələyəz mahalının Gindivaz kəndində yerləşir. Buna görə də, bəzi qaynaqlarda Gindivaz məbədi kimi də adlandırılmışdır. Alban məbədləri Qafan, Zod, Yuxarı Kilsə kəndləri ərazisində də var. Lakin Ermənistan elmi müəssisələri tərəfindən erməni abidəsi kimi təqdim edilir.

XX əsrin 60-cı illərində aparılmış arxeoloji qazıntılar nəticəsində Göyçə mahalının Ağkilsə kəndində e.ə. III-II minilliyə aid qəbirlər aşkar edilmişdir. Bu qəbirlər Uğuz, yəni, Oğuz qəbirləri kimi ədəbiyyatlarda qeyd edilmişdir. Ötən əsrin 70-ci illərində erməni arxeoloqları tərəfindən Ağtala kəndi ərazisində kurqanlar tapılmışdır. E.ə. III-II əsrlərə aid olan bu kurqanlarda tapılan əşyaların bir hissəsi Ermənistan muzeylərində erməni nümunələri kimi təqdim edilir. Belə kurqan tipli qəbirlər Aşağı Zağalı kəndində də tapılmışdır. Buradan tapılan kurqanlar e.ə. I minilliyə aiddir. E. Lalayan tərəfindən

XX əsrin əvvəllərində Aşağı Zağalı kurqanlarında arxeoloji qazıntılar aparılmışdır. Qeyd edək ki, B.Pyotrovski buradan tapılan abidələri və əşyaları tədqiq etmişdir. O, A.İvanovski, V.Belkin tərəfindən Azərbaycanın digər ərazilərindən tapılan arxeoloji qazıntılarla bu kurqanların eyni olduğunu bildirmişdir.

Qərbi Azərbaycanda olan maddi mənbələr içərisində dini-mədəni abidələr - məscidlər, türbələr, pirlər də mövcuddur. Bunlar da buranın əzəli sakinlərinin Azərbaycan xalqı olmasının bariz nümunəsidir. Belə dini-tarixi abidələrdən biri V-VI əsrlərə aid Allahverdibəyli kəndində yerləşən türbədir. Bu kənd Səfəvilər dövründə Çuxursəd bəylərbəyiliyinə daxil idi. İ.Şopen tərəfindən verilən məlumatdan aydın olur ki, Göyçə mahalının inzibati ərazisinə daxil olmuşdur. Bu kənddə yerləşən türbə deportasiyanın son mərhələsinə 1987-1991-ci illərə kimi salamat idi. Qədim türbələrdən biri də İrəvan quberniyasının Yeni Bəyazid qəzasının Əfəndi kəndində yerləşən türbədir. Bu türbə III-II əsrlərə aiddir. Memarlıq baxımından zərdüşt məbədlərini xatırladan türbə xalqımızın qədim tarixi ənənələrindən xəbər verir. Belə türbələr içərisində XIX əsrdə inşa edilmiş Mir Həmzə Nigari türbəsi, Şeyx İsmayıl Siracəddin türbələrini də qeyd etmək olar. Qərbi Azərbaycan ərazisində müxtəlif pirlər, ziyarətgahlar da yerləşir. Bunlardan biri Ağac piridir, İrəvan ərazisində Avdıbəy kəndində yerləşir. Tarixi qaynaqlardan, folklor nümunələrindən məlumdur ki, ağac kultu türklərə məxsusdur. Müxtəlif türk xalqlarında ağac kultu ilə bağlı ziyarətgahlar mövcuddur. Belə ziyarətgahlara həmçinin, Azərbaycanın digər ərazilərində də rast gəlmək olur. Erməni mənbələri özü də bu ərazilərdə yaşayanların qarapapaqlar olduğunu yazır ki, qarapapaqlar türk xalqlarından biridir və Azərbaycanın digər ərazilərində də yaşamışlar.

Qərbi Azərbaycanda olan dini inanc yerlərindən biri də Amasyada Ellərkənd yaxınlığında yerləşən Məhbub ocağıdır. Mənbələrdə də qeyd edilir ki, Məhbub ocağı Ağbaba mahalının əhalisinin müqəddəs yerlərindən biridir. Əhali buranı vaxtaşırı ziyarət edərdi. Bu dini-tarixi abidə də azərbaycanlıların son deportasiya olunmasına qədər qorunub saxlanmışdır. İndi isə abdənin vəziyyəti haqqında dəqiq məlumat əldə etmək mümkün olmur. İrəvan yaxınlığında Qaranlıq kəndi ətrafında XVIII-XIX əsrə aid Abduləsər ocağı yerləşirdi. Bu dini-memarlıq abidəsinin ətrafında qədim dövrlərə aid müxtəlif qəbirlər də mövcud olmuşdur. Dini ziyarətgahlardan biri də XII-XIII əsrə aid Baba Hacı piri idi. Nüvədi kəndində yerləşən bu dini abidə 1960-cı ildə kənd camaatının səyi nəticəsində müəyyən qədər bərpa edilmişdir. Bu pir 1988-1991-ci ildə azərbaycanlıların deportasiya edilməsindən sonra dağıdılmışdır. Bu dini abidələr bir daha bu ərazilərin azərbaycanlılara aid olmasını göstərir. Buna görə də ermənilər tərəfindən əksəriyyəti məhv edilmişdir, qədim alban məbədlərinin üzərlərində isə süni dəyişikliklər edəərək erməni abidəsi kimi qələmə verməyə çalışırlar. Lakin dini xüsusiyyətlər bu erməni yalanlarını da ifşa edir. Çünki ermənilər dini məhzəb olaraq qriqoryan olduqları üçün onların istifadə etdiyi xaç qədim alban-xristian xaçlarından fərqlənir.

Qərbi Azərbaycan ərazisində Azərbaycan xalqına məxsus maddi-mədəni irs, tarixi abidələr içərisində qaayüstü təsvirlər, məbədlər, məscidlər, körpülər və s.mövcuddur. Bu abidələrin hər biri Azərbaycan tarixinin izlərini özündə daşıyan tarixi mənbələrdir. Məhz buna görə də ermənilər tərəfindən saxtalaşdırılaraq, özlərininki kimi təqdim edilir, əksəriyyəti isə tarixi izlərimizi silmək üçün məhv edilmişdir. Lakin bu abidələrin tədqiqi və müxtəlif yazılı mənbələrdən və tarixi sənədlərdən əldə edilən məlumatlarla müqayisəli təhlili bir daha göstərir ki, Qərbi Azərbaycan ərazisi Azərbaycan xalqının tarixi torpaqlarıdır və azərbaycanlılar zorla, məqsədli şəkildə öz doğma yerlərindən deportasiya olunmuşlar.

| | |
|---|---|
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>100% |

| | |
|---|---|
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | *(burada doldurmalı)*<br>Qərbi Azərbaycan ərazisində mövcud olan abidələr, əldə edilmiş arxeoloji materiallar da tarixi həqiqətləri özündə əks etdirir. Bu abidələrin tarixi, etimoloji xüsusiyyətləri, yerləşdiyi ərazinin toponomikası kimi xüsusiyyətlər araşdırılmışdır. Bunun üçün Qərbi Azərbaycan ərazisində yerləşən maddi-mədəniyyət nümunələrimiz, tarixi abidələr haqqında müxtəlif yazılı qaynaqlarda qeyd edilən məlumatlardan istifadə edilmişdir. Tarixi abidələr üzərində əks olunmuş təsvirlər, yazılardan da bu abidələrin Azərbaycan xalqına məxsus olması aydın görünür. Bundan başqa, müxtəlif yazılı mənbələrdə - Avropalı səyyahların gündəliklərində, tarixi sənədlərdə, çar Rusiyasına aid rəsmi statistik məcmuələrdə də bu abidələr barədə müəyyən məlumatlar əks olunmuşdur. Həm maddi-mədəniyyət nümunələri, həm də onların təsvir edildiyi yazılı mənbələrdəki məlumatlar kompleks şəkildə tədqiq olunmuşdur. Qərbi Azərbaycanda aparılmış arxeoloji tədqiqatlar, regionun sistemli şəkildə öyrənilməsi tarixinə də diqqət yetirilmişdir. Həmçinin, maddi-mədəniyyət nümunələrinin ermənilər tərəfindən saxtalaşdırılması probleminə də diqqət yetirilmişdir. |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Layihə mövzusunun araşdırılması zamanı keyfiyyət tədqiqat metodundan, sənəd təhlilindən istifadə edilmişdir. İlk növbədə mövzu ilə bağlı bu vaxta kimi yazılmış monoqrafiyalar, məqalələrə müraciət edilmişdir. Eyni zamanda, ümumiləşdirmə, analitik təhlil, müqayisə, sistemləşdirmə metodlarından istifadə edilmişdir. |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>Layihə üzrə İsmayılova Aygün və icraçı Abbasova Sevincin həmmüəllif olduğu "Genocide carried out in Western Azerbaijan in 1918-1920" adlı məqalə "Slovak international scientific journal"ın №84 sayında çap edilmişdir. Məqalənin yerləşdiyi jurnalın linki: https://sis-journal.com/wp-content/uploads/2024/06/Slovak-international-scientific-journal-%E2%84%9684-2024.pdf<br>"Material-cultural samples of Western Azerbaijan as a historical source" adlı məqalə isə "Annali d'Italia scientific journal"a çap olunması üçün göndərilmişdir. |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)*<br>- |
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | *(burada doldurmalı)*<br>- |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *(burada doldurmalı)*<br>- |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>- |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *(burada doldurmalı)*<br>- |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *(burada doldurmalı)*<br>- |

| | |
|---|---|
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Layihənin bu mərhələsində tarix üzrə fəlsəfə doktoru Samir İsmayılov, tarix üzrə fəlsəfə doktoru Jalə İsmayılova və tarix üzrə fəlsəfə doktoru Sevinc Qasımova ilə əlaqə saxlanılmış, mənbələrin əldə edilməsi, təhlili ilə bağlı müzakirə və məsləhətləşmələr aparılmışdır. |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>- |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *(burada doldurmalı)*<br>- |
| **15** | Sərgilərdə iştirak |
| | *(burada doldurmalı)*<br>- |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(burada doldurmalı)*<br>- |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *(burada doldurmalı)* |

**Layihə rəhbərinin imzası ___________________ İsmayılova Aygün Vilayət qızı**

**Tarix ____________________**

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.